*Azərbaycan Universiteti Elmi Şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

# Azərbaycan Universitetində təhsil haqqının ödənilməsi ilə bağlı izahlı TƏLİMAT

**Təsdiq edirəm: _____________ Rektor S.N.Əliyeva**

**Hazırladı: ______________ Tələbələrlə iş şöbəsinin müdiri H. Ə. Məmmədova**

**Razılaşdırılıb: ______________ Baş hüquqşünas N.P.Mehdiyev**

**Bakı – 2025**

**Azərbaycan Universitetində təhsil haqqının ödənilməsi ilə bağlı izahlı**
**TƏLİMAT**

## 1. Ümumi müddəalar

Bu Təlimat "Azərbaycan Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyətində (bundan sonra – "***AU***" və ya "***Universitet***") təhsil alan tələbələrin təhsil haqqının ödənilməsi ilə bağlı gündəlik tədris prosesində yaranan sualları cavablandırmaq, yeni qəbul olan tələbələrə təhsil haqqı ödənişi ilə bağlı qısa və konkret məlumat vermək, təhsil haqqının ödənilməsi ilə bağlı sənədləşmə işinin düzgün qurulmasını təmin etmək üçün hazırlanmışdır.

Təlimat "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun[1], "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarının[2], Universitetin Strateji İnkişaf Planının və digər qanunvericilik aktlarının tələblərinə uyğun hazırlanmışdır. Ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqının ödənişi zamanı Təhsil Tələbə Kredit Fondunun təşkil etdiyi Tələbə kreditindən[3] istifadə etmə imkanı var.

## 2. Təhsil haqqı, onun növləri və ona edilən güzəştlər

2.1. Ali Təhsil Müəssisəsində (bundan sonra "ATM") təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir. Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və magistratura təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil haqqının miqdarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiqlənir və Elm və Təhsil Nazirliyi vasitəsilə Universitetin büdcəsinə köçürülür. Ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqı təhsilalanla ATM arasında bağlanmış müqaviləyə əsasən 2 hissəyə bölünməklə payız və yaz semestrlərinin başlanmasınadək (bu, təqvimdəki istirahət günlərindən asılı olaraq adətən 15 sentyabr və 15 fevral tarixlərinə təsadüf edir) ödənilir.

2.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 14.8-1-ci maddəsinə əsasən sosial müdafiəyəyə xüsusi ehtiyacı olan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir:

2.2.1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslər;

2.2.2. Şəhid ailəsinin üzvləri;

2.2.3. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;

2.2.4. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları.

2.2.5. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;

2.3. Qeyd edilən maddə üzrə əlavə güzəşt alan şəxslərin də mövcud olmasına baxmayaraq, özəl ali təhsil müəssisələrinə aid edilən şəxslərin siyahısı yuxarıda qeyd edildiyi formada tətbiq edilir.

---

[1] https://e-qanun.az/framework/18343
[2] https://e-qanun.az/framework/59611
[3] https://e-qanun.az/framework/48022

2.4. Yuxarıdakı 2.2.1-2.2.3 bəndlərinə aid olan katerqoriyalar üzrə təhsil haqqı tam şəkildə, 2.2.4 və 2.2.5 bəndlərinə aid olan şəxslərin isə təhsil xərci Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş miqdarda dövlət büdcəsindən ödənilir.

2.5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 14.8-1-ci maddəsinə əsasən sosial müdafiəyəyə xüsusi ehtiyacı olan şəxslər özəl ali təhsil müəssisəsinə qəbul olunarkən həmin qruplara aid olmasını təsdiq edən müvafiq sənədləri Universitetin Tələbələrlə iş şöbəsinə təqdim etməlidirlər. Həmin sənədlər Tələbələrlə iş və Hüquq şöbələri tərəfindən yoxlanılaraq təsdiq edilir və yekun olaraq Tələbələrlə iş şöbəsində saxlanılır.

2.6. Yuxarıda göstərilmiş güzəştlərdən başqa Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş əlavə güzəştlər mövcuddur. Universitetin Güzəşt Komissiyası qeyd olunan əlavə güzəştlər əsasında bu imtiyazlara aid olan tələbələri müəyyən edir. Qeyd olunan güzəştlər haqqında geniş məlumat bu sənədin 8-ci bəndində təqdim olunur.

## 3. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərə təhsil haqqına edilən güzəştlər

3.1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş (bundan sonra ***"VHM"***) və əyani təhsil alan şəxslərin təhsil haqqına "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa[4] əsasən 23 yaşınadək güzəşt tətbiq edilir. Valideynlərini itirmiş uşaqlar hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan şəxslər hesab edilir. Valideyn himayəsindən məhrum olmuş uşaqlar isə hər iki valideyni aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olan şəxslərdir:

3.1.1. məlum olmayan;

3.1.2. valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;

3.1.3. xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;

3.1.4. cəzaçəkmə müəssisələrində cəzasını çəkən;

3.1.5. uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;

3.1.6. uşaqlarını uşaqlar üçün sosial xidmət müəssisələrindən götürməkdən imtina edən;

3.1.7. Bir valideyni vəfat etmiş və o biri valideyni orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs.

3.2. VHM şəxslər Universitetə qəbul olunarkən, ya da valideyninin vəfatı və ya əlillik müəyyənləşməsi tədris dövründə baş verdikdə bu barədə sənədləri 10 iş günü müddətində AU-nun Tələbələrlə iş şöbəsinə təqdim edir. Tələbələrlə iş və Hüquq şöbələri tərəfindən sənədlərin uyğunluğu təsdiqləndikdən sonra Tələbələrlə iş şöbəsi 3 iş günü ərzində tələbənin VHM kateqoriyasına daxil edilməsi haqqında əmr hazırlayır və bu barədə məlumat Elm və Təhsil Nazirliyinin səlahiyyətli şöbəsinə təqdim edir.

3.3. VHM şəxslərə AU-da ödənişli və ya dövlət sifarişi ilə təhsil almalarından asılı olmayaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarına[5] uyğun olaraq təyin edilmiş təqaüddən əlavə həmin təqaüdün iki mislindən az olmayan

---

[4] https://e-qanun.az/framework/3859
[5] https://e-qanun.az/framework/32086

miqdarda təqaüd verilir. Tələbənin qeyd edilən Qaydaya uyğun olaraq təqaüd almaq hüququ yoxdursa o zaman ona adi təqaüdün iki mislindən az olmayan miqdarda təqaüd ödənilir.

3.4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18.09.2025-ci il tarixli, 273 saylı qərarına əsasən VHM ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman müvafiq təhsil müəssisəsinin xərclər smetası hesabına “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının 2-ci hissəsinə uyğun olaraq 2600 (iki min altı yüz) manat məbləğində birdəfəlik müavinətlə təmin edilirlər.

## 4. Şəhid ailəsi üzvlərinə aid təhsil haqqı güzəştləri

4.1. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər” haqqında Azərbaycan Respublikasının Qanununa[6] əsasən aşağıdakı şəxslər şəhid ailəsinin üzvü hesab edilir:

4.1.1. ər-arvad;

4.1.2. valideyn;

4.1.3. 18 yaşına çatmamış uşaqlar;

4.1.4. 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları;

4.1.5. qardaşlar və bacılar- uşaq evlərində tərbiyə olunanlar;

4.1.6. qanunla onları saxlamalı şəxs yoxdursa babalar və nənələr.

4.2. Yuxarıda qeyd edilən şəxslər AU-da təhsil aldığı dövrdə təhsil müəssisəsini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək şəhid ailəsinin üzvü hesab edilirlər.

4.3. Şəhid ailəsinin üzvləri AU-da ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir.

## 5. Əlilliyi olan şəxslər üçün təhsil haqqı güzəştləri

5.1. Universitetə qəbul zamanı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 14.8-1.4-cü maddəsinə əsasən orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər siyahısına aid edilən və əlillik müddətləri təhsil aldıqları dövr ərzində başa çatan tələbələr haqqında əlillik müddətləri başa çatdığı zaman aşağıdakı addımlar atılır:

5.2. Əlilliyin bitmə tarixindən 1 (bir) ay əvvəl dekanlıq tərəfindən tələbəyə müvafiq qaydada məlumat verilir;

5.3. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun[7] 3.1-ci maddəsinə əsasən şəxsin orqanizminin funksiyalarının pozulması faizi, səbəbi və müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onun əlilliyinin qiymətləndirilməsi keçirildikdən sonra qəbul edilmiş qərar əsasında müəyyən edilir. Şəxsin əlilliyinin qiymətləndirilməsi, o cümlədən əlilliyin təkrar qiymətləndirilməsi onun tibbi-sosial ekspertiza müayinəsinə göndərişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu tarixdən 10 (on) iş günü müddətində, əlavə araşdırma tələb edildiyi halda isə 15 (on beş) iş günü müddətinə uzadılmaqla keçirilir.

5.4. Əlavə olaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun 3.3-1-ci maddəsinə əsasən əlillik müddəti bitdikdən sonra 6 ay ərzində əlilliyin təkrar

[6] https://e-qanun.az/framework/12184
[7] https://e-qanun.az/framework/39591

qiymətləndirilməsi nəticəsində şəxsin əlilliyi yenidən müəyyən edildikdə, şəxs ötürülmüş müddət də daxil olmaqla, əlilliyi olan şəxs hesab edilir.

5.5. Buna əsasən, tələbə güzəştin dayandırılma (yəni, ilkin təqdim edilmiş sənəd üzrə əlilliyinin müddətinin başa çatma) tarixindən etibarən ən geci 6 ay ərzində əlilliyi təsdiq edən yeni sənəd təqdim etməlidir ki, ona tətbiq edilmiş güzəşt dayandırılma (yəni, ilkin təqdim edilmiş sənəd üzrə əlilliyinin müddətinin başa çatma) tarixindən yenidən hesablansın. Təqdim edilən yeni sənəd ilə dayandırılma (yəni, ilkin təqdim edilmiş sənəd üzrə əlilliyinin müddətinin başa çatma) tarixi arasında fərqlilik mövcud olarsa təqdim edilən yeni sənəddəki tarix əsas götürüləcəkdir.

5.6. Tələbə əlilliyin təkrar qiymətləndirilməsinə aid sənədləri dekanlıq və Tələbələrlə iş şöbəsinə təqdim edir. Tələbələrlə iş şöbəsi sənəd əsasında müvafiq əmr hazırlayır və bu barədə məlumatı Elm və Təhsil Nazirliyinin səlahiyyətli şöbəsinə təqdim edir.

## 6. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların övladlarına aid təhsil haqqı güzəştləri

6.1. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamına[8] əsasən bu kateqoriyadan olan tələbələrin təhsil müddəti ərzində təhsil haqqı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

6.2. Universitetin Elmi Şurası hər tədris ilinin əvvəlində, həmin tədris ilində qəbul olunmuş və bu kateqoriyadan olan şəxslərin normativ təhsil müddəti ərzində təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməyən hissəsindən azad olunması barədə qərar qəbul edir.

## 7. “Müharibə veteranı” adı almış şəxslərin təhsil haqqına edilən güzəştlər

7.1. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

7.2. Universitetin Elmi Şurası hər tədris ilinin əvvəlində, həmin tədris ilində qəbul olmuş və “Müharibə veteranı” adı olan şəxslərin normativ təhsil müddəti ərzində təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməyən hissəsindən azad olunması barədə qərar qəbul edir.

[8] https://president.az/az/articles/view/20647

## 8. Daxili güzəştlər

8.1. Bu Təlimatın 6.2 və 7.2-ci bəndlərində qeyd edilən güzəştlərdən əlavə Universitetin Elmi Şurasının qərarları ilə aşağıdakı güzəştlər tətbiq edilir:

8.1.1. Universitetdə bakalavriat və magistratura səviyyələrində dövlət sifarişi ilə təhsil alan şəxslər normativ təhsil müddəti ərzində təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməyən hissəsindən azad olunur;

8.1.2. AU-nun bakalavriat səviyyəsindən məzun olduğu il Universitetin magistratura səviyyəsinə ödənişli əsaslarla qəbul olunmuş məzunların təhsil haqqına təhsil müddəti ərzində 10% güzəşt tətbiq edilir.

8.2. Sosial vəziyyəti aztəminatlı kateqoriyaya aid edilə bilən, lakin dövlət tərəfindən güzəştli kateqoriyaya aid olmayan tələbələr hər tədris ilində bir dəfə təşkil edilən Güzəşt Komissiyasına müvafiq sənədləri təqdim etməklə müraciət edə bilər. Komissiyanın qərarı əsasında Tələbələrlə iş şöbəsi tərəfindən hazırlanan əmrlə tələbə, həmin tədris ili üçün qərarda göstərilən miqdarda təhsil haqqından azad edilir.

## 9. Yekun müddəalar

9.1. Bu Təlimat rəsmi normativ-hüquqi akt statusu daşımır və yalnız Universitet daxilində məlumat xarakterli olaraq tətbiq olunması üçün hazırlanmışdır.

9.2. Bu Təlimat Universitetin Elmi Şurasının qərarı ilə təsdiq edilir. və təsdiq edildiyi andan tətbiq edilir.

9.3. Bu Təlimat hər hansı bir formada hər hansı bir qanunvericilik aktının şərhi və ya tətbiq edilmə qaydası kimi nəzərə alınmamalıdır.